**“IMPROTEX MOTORS” Məhdud Məsuliyyətli Müəssisəsi**

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun Konsolidasiya edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

31 dekabr 2022-ci il tarixində bitən il üzrə

## KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Improtex motors" MMM-nin (bundan sonra "Müəssisə") konsolidasiya edilmiş Maliyyə Hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditor arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik 2022-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

MHBS-yə uyğun konsolidasiya edilmiş Maliyyə Hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nin tələblərinə riayət olunması; və
- Əgər yaxın gələcəkdə, Müəssisənin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Müəssisə daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Müəssisənin konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və konsolidasiya olunmuş maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Müəssisənin fəaliyyət göstərdiyi ölkədə qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Müəssisənin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2022-ci il tarixində bitən il üzrə konsolidasiya edilmiş Maliyyə Hesabatları Müəssisənin rəhbərliyi tərəfindən 13 noyabr 2023-cü ildə təsdiq edilmişdir.

Bayram Yaqubov
Baş direktor

13 noyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

Sevil Zülfüqarova
Baş mühasib

13 noyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan
Demirchi Tower 18th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan
T +994(12) 480 4571
F +994(12) 480 4563
www.rsm.az

## Müstəqil Auditorun Hesabatı

"Improtex motors" Məhdud Məsuliyyətli Müəssisənin rəhbərliyinə və müəssisənin idarəedilməsində cavabdeh olan səlahiyyətli şəxslərə:

### Rəy

Biz "Improtex motors" Məhdud Məsuliyyətli Müəssisənin 31 dekabr 2022-ci il tarixinə təqdim edilən vəziyyəti haqqında konsolidasiya edilmiş maliyyə hesabatdan və 31 dekabr 2022-ci il tarixində bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Müəssisənin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

### Rəyin bildirilməsi üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Müəssisədən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Konsolidasiya edilmiş maliyyə Hesabatlarına görə rəhbərliyin və Müəssisənin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik, MHBS-yə uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına və ədalətli təqdim olunmasına cavabdehdir, o cümlədən fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Müəssisəni ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Müəssisənin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Müəssisənin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Müəssisənin konsolidasiya edilmiş Maliyyə Hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.



RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edirik və qiymətləndiririk, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edirik, rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

- Müəssisənin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.

- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Müəssisənin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Müəssisənin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

- Konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və konsolidasiya edilmiş maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

13 noyabr 2023-cü il

RSM Azerbaijan

Bakı, Azərbaycan Respublikası

**“IMPROTEX MOTORS” Məhdud Məsuliyyətli Müəssisəsi**

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun Konsolidasiya edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

31 dekabr 2022-ci il tarixində bitən il üzrə

## MÜNDƏRİCAT

31 dekabr 2022-ci il tarixində bitən il üzrə konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyətinin bəyanı......1

Müstəqil Auditorun Hesabatı......2-3

**31 dekabr 2022-ci il tarixində bitən il üzrə Konsolidasiya edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Maliyyə Hesabatları:**

Maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabat......4
Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidasiya edilmiş hesabat......5
Kapitalda dəyişikliklər haqqında konsolidasiya edilmiş hesabat......6
Pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabat......7
Konsolidasiya edilmiş Maliyyə hesabatları ilə bağlı qeydlər......8-33

**KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Improtex motors" Məhdud Məsuliyyətli Müəssisənin (bundan sonra "Müəssisə") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") konsolidasiya edilmiş Maliyyə Hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditor arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik 2022-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

MHBS-yə uyğun konsolidasiya edilmiş Maliyyə Hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nin tələblərinə riayət olunması; və
- Əgər yaxın gələcəkdə, Qrupun normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Qrup daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və konsolidasiya olunmuş maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Qrupun fəaliyyət göstərdiyi ölkədə qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması

üçün məsuliyyət daşıyır.

31 dekabr 2022-ci il tarixində bitən il üzrə konsolidasiya edilmiş Maliyyə Hesabatları Qrupun rəhbərliyi tərəfindən 13 noyabr 2023-cü ildə təsdiq edilmişdir.

Bayram Yaqubov
Baş direktor

13 noyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

Sevil Zülfüqarova
Baş mühasib

13 noyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Müstəqil Auditorun Hesabatı**

"Improtex motors" Məhdud Məsuliyyətli Müəssisənin rəhbərliyinə və müəssisənin idarəedilməsində cavabdeh olan səlahiyyətli şəxslərə:

**Rəy**

Biz "Improtex motors" Məhdud Məsuliyyətli Müəssisənin (bundan sonra "Müəssisə") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən vəziyyəti haqqında konsolidasiya edilmiş maliyyə hesabatdan və 31 dekabr 2022-ci il tarixində bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Konsolidasiya edilmiş maliyyə Hesabatlarına görə rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti**

Rəhbərlik, MHBS-yə uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına və ədalətli təqdim olunmasına cavabdehdir, o cümlədən fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Qrupu ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Qrupun öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Qrupun idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun konsolidasiya edilmiş Maliyyə Hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edirik və qiymətləndiririk, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edirik, rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.

- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

- Konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və konsolidasiya edilmiş maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

13 noyabr 2023-cü il

Bakı, Azərbaycan Respublikası

## Maliyyə vəziyyəti haqqında hesabat

*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 6 | 9,247,596 | 3,269,496 |
| İnvestisiya mülkiyyəti | 7 | 914,955 | 914,955 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **10,162,551** | **4,184,451** |
| **Cari aktivlər** | | | - |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 8 | 498,867 | 196,876 |
| Mal-material ehtiyatları | 9 | 12,380,903 | 3,157,419 |
| Ticarət və digər debitor borcları | 10 | 1,716,766 | 7,266,828 |
| Digər aktivlər | | 2,185 | 97,435 |
| **Cəmi cari aktivlər** | | **14,598,721** | **10,718,558** |
| **CƏMİ AKTİVLƏR** | | **24,761,272** | **14,903,009** |
| **Öhdəliklər** | | | |
| **Cari öhdəliklər** | | | |
| Alınmış avanslar | 13 | 6,745,174 | 2,471,807 |
| Ticarət və digər kreditor borcları | 12 | 10,809,919 | 7,329,978 |
| Digər öhdəliklər | 14 | 27,074 | 65,591 |
| **Cəmi cari öhdəliklər** | | **17,582,167** | **9,867,376** |
| **Uzunmüddətli öhdəliklər** | | - | - |
| Müddətli borc öhdəlikləri | 11 | 2,850,134 | 340,000 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **2,850,134** | **340,000** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **20,432,301** | **10,207,376** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | | 5,325 | 4,260 |
| Digər kapital | | 58,931 | 59,792 |
| Bölüşdürülməmiş mənfəət | | 4,264,715 | 4,631,581 |
| **CƏMİ KAPİTAL** | | **4,328,971** | **4,695,633** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **24,761,272** | **14,903,009** |

13 noyabr 2023-cü il tarixində Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Bayram Yaqubov
Baş direktor

Sevil Zülfüqarova
Baş mühasib

8-33-cü səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

## Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat

*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Gəlirlər | 15 | 78,261,830 | 68,417,416 |
| Satışların maya dəyəri | 16 | (68,712,540) | (60,151,969) |
| **Məcmu mənfəət** | | **9,549,290** | **8,265,447** |
| Ümumi və inzibati xərclər | 17 | (5,393,133) | (4,130,819) |
| Məzənnə fərqindən zərər, xalis | | (213,926) | (195,584) |
| Digər xərclər | | (698,000) | (81,017) |
| Digər gəlirlər | | 300,288 | 17,259 |
| Maliyyə xərci | | (384,984) | (216,810) |
| **Vergidən əvvəlki mənfəət** | | **3,159,535** | **3,658,476** |
| Mənfəət vergisi xərci | | (621,586) | (335,872) |
| **İl üzrə xalis mənfəət** | | **2,537,949** | **3,322,604** |
| Digər məcmu gəlirlər | | - | - |
| **İl üzrə mənfəət və cəmi məcmu gəlir** | | **2,537,949** | **3,322,604** |

13 noyabr 2023-cü il tarixində Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Bayram Yaqubov
Baş direktor

Sevil Zülfüqarova
Baş mühasib

8-33-cü səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

## Kapitalda dəyişikliklər haqqında hesabat

*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Digər kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixinə** | **200** | **72,156** | **2,579,177** | **2,651,533** |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | - | - | 3,322,604 | 3,322,604 |
| Dividendlərdən başqa səhmdarlara kapital bölgüsü | - | - | (1,270,200) | (1,270,200) |
| Nizamnamə kapitalının artması | 4,060 | - | - | 4,060 |
| Digər kapitalın artması | - | (12,364) | - | (12,364) |
| **31 dekabr 2021-ci il tarixinə** | **4,260** | **59,792** | **4,631,581** | **4,695,633** |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | - | - | 2,537,949 | 2,537,949 |
| Dividendlərdən başqa səhmdarlara kapital bölgüsü | - | - | (2,904,815) | (2,904,815) |
| Digər kapitalın azalması | - | (861) | - | (861) |
| Nizamnamə kapitalının artması | 1,065 | - | - | 1,065 |
| **31 dekabr 2022-ci il tarixinə** | **5,325** | **58,931** | **4,264,715** | **4,328,971** |

13 noyabr 2023-cü il tarixində Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ MƏHDUD MƏS'ULİYYƏTLİ MÜƏSSİSƏ Improtex motors

Bayram Yaqubov
Baş direktor

Sevil Zülfüqarova
Baş mühasib

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Vergidən əvvəlki mənfəət | | 3,159,535 | 3,658,476 |
| **Vergidən əvvəl mənfəətin xalis pul axınları ilə uyğunlaşdırmaq üçün qeyri-pul düzəlişləri** | | | |
| Köhnəlmə xərcləri | 7 | 748,861 | 421,500 |
| Əsas vəsaitlərin satışından gəlir | 7 | - | (17,259) |
| Maliyyə xərci | | 384,984 | 216,810 |
| Məzənnə fərqindən zərər, xalis | | 213,926 | 195,584 |
| **Dövriyyə aktivlərinin və öhdəliklərinin dəyişilməsindən əvvəl gəlir** | | **4,507,306** | **4,475,111** |
| **Dövriyyə vəsaitlərinin dəyişilməsi** | | | |
| Mal-material ehtiyatları | | (9,223,484) | 1,968,734 |
| Ticarət və digər debitor borcları | | 5,332,076 | (4,435,793) |
| Ticarət və digər kreditorborcları | | 3,484,001 | 703,710 |
| Digər aktivlər | | 95,250 | 517,358 |
| Alınmış avanslar | | 4,273,367 | 1,445,657 |
| Digər öhdəliklər | | (38,517) | 69,783 |
| **Vergi və faizlərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **8,429,999** | **4,744,560** |
| Ödənilmiş maliyyə xərci | | (621,586) | (335,872) |
| Ödənilmiş vergi xərci | | (384,984) | (216,810) |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitləri** | | **7,423,429** | **4,191,878** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Əmlak və avadanlıqların alınması | 7 | (6,726,961) | (2,522,437) |
| Əsas vəsaitlərin satışından daxilolmalar | 7 | - | 82,657 |
| İnvestisiya qoyuluşu | 6 | - | (914,955) |
| **İnvestisiya fəaliyyətində istifadə edilmiş pul vəsaitləri** | | **(6,726,961)** | **(3,354,735)** |
| **Maliyyə fəaliyyəti** | | | |
| Banklar qarşısında öhdəliklər üzrə daxilolmalar | 12 | 4,543,200 | 340,000 |
| Banklar qarşısında olan öhdəliklərin ödənişi | 12 | (2,033,066) | - |
| Dividendlərdən başqa səhmdarlara kapital bölgüsü | | (2,904,815) | (1,270,200) |
| Nizamnamə kapitalının artması | | 1,065 | 4,060 |
| Digər kapitalın dəyişilməsi | | (861) | (12,364) |
| | | - | - |
| **Maliyyə fəaliyyətində istifadə edilmiş xalis pul vəsaitləri** | | **(394,477)** | **(938,504)** |
| Məzənnə fərqinin pul və pul vəsaitlərinin ekvivalentlərinə təsiri | | - | - |
| **Pul və pul vəsaitlərinin xalis artması / (azalması)** | | **301,991** | **(101,361)** |
| **Pul və pul vəsaitlərinin ekvivalentləri ilin əvvəlinə** | 9 | **196,876** | **298,237** |
| **Pul və pul vəsaitlərinin ekvivalentləri ilin sonuna** | 9 | **498,867** | **196,876** |

13 noyabr 2023-cü il tarixində Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Bayram Yaqubov
Baş direktor

Sevil Zülfüqarova
Baş mühasib

## 1. Qrupun əsas fəaliyyəti

"Improtex motors" MMM ("Müəssisə") və onun törəmə müəssisəsi olan "Improtex travel tours and conferences" Müəssisəsinin (bundan sonara "Qrup") 31 dekabr 2022-ci il tarixində bitən il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə hazırlanmışdır.

"Improtex motors" MMM ("Müəssisə") Azərbaycan Respublikasının qanunlarına əsasən 04 aprel 1997-ci il tarixində 2254 qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış və Azərbaycan Respublikasının qaydalarına uyğun yaradılmışdır. Müəssisənin hüquqi ünvanı, Bakı şəhəri, Nəsimi rayonu, 20 Yanvar küçəsi, ev 33.

**Qrup aşağıdakı fəaliyyətlərlə məşğuldur:**

• Xarici avtomobil şirkətinin distributorluğu;
• Avtomobillərin və ehtiyat hissələrinin satışı;
• Avtomobillərin texniki xidməti üzrə mərkəzlərin açılması və istismarı;
• Mağazaların açılması;
• İdxal-ixrac əməliyyatların aparılması;
• Müxtəlif növ malların istehsalı və satışı;

"Improtex motors" MMM 31 dekabr 2022-ci il tarixində həmin tarixdə bitən il üzrə əsas törəmə müəssisəsi aşağıdakı kimi olmuşdur:

| Şirkətin adı | Fəaliyyət növü | Qrupun səhm payı |
|---|---|---|
| "Improtex travel tours and conferences" Müəssisəsi | Turizm | 100% |

"Improtex travel tours and conferences" Müəssisəsi 15 iyul 1996-cı ildə 30172 dövlət qeydiyyat nömrəsi ilə qeydiyyata alınmışdır. Müəssisənin hüquqi ünvanı, Bakı şəhəri, Nəsimi rayonu, Həzi Aslanov, ev 115.

Qrup uçuş biletlərinin rezervasiyası, individual və qrup tur paketlərinin hazırlanması, tur bələdçilərinin təşkil edilməsi, viza dəstəyi və qonaqlama kimi xidmətlər göstərir.

**Qrupun səhmdarı**

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Füzuli Ələkbərov | 80% | 100% |
| Məryəm Ələkbərova | 20% | - |

Qrupun nizamnamə kapitalı hər birinin nominal dəyəri 1 AZN olan 5,325 (2021: 4,260 səhm) səhmdən ibarətdir. Qrupun yekun mülkiyyətçisi və nəzarəti həyata keçirən şəxs Cənab Füzuli Ələkbərovdur.

## 2. Əməliyyat mühiti

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək artımı və dayanıqlığı hökumətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

2016-cı ildə baş vermiş devalvasiyadan sonra institusional dəyişiklikləri əhatə edən iqtisadi islahatlara əsasən 2017-2019-cu illər ərzində iqtisadi artım pozitiv zonada qalmaqda davam etmiş, inflyasiya aşağı birrəqəmli səviyyədə sabitləşmiş və milli valyutanın məzənnəsi dayanıqlı səviyyədə olmuşdur.

2020-ci ildə baş vermiş resessiyanın ardınca Azərbaycan iqtisadiyyatı 2021-ci ildə əhəmiyyətli dərəcədə dirçəlmiş və 5,6 faiz artaraq pandemiyadan əvvəlki səviyyəyə qayıtmışdır. 2021-ci ildə neft qiymətlərinin bərpası və pandemiya ilə bağlı məhdudiyyətlərin tədricən aradan qaldırılması etimadı gücləndirmiş və davam edən pandemiya ilə bağlı çətinliklərə baxmayaraq, qeyri-neft sektorlarında iqtisadi artıma dəstək vermişdir. İllik ixracın 60%-dən çox artımı sayəsində manata təzyiqin əhəmiyyətli dərəcədə azalması sayəsində 2021-ci il ərzində manat sabit qalmışdır.

## 2. Əməliyyat mühiti (davamı)

Qarabağın işğaldan azad edilməsindən sonra bu ərazilərin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası diqqət mərkəzində olmaqla, işğaldan azad edilmiş torpaqlarda bərpa və yenidənqurma işlərinə sürətlə start verilmişdir. Bu fəaliyyətlərin yaxın gələcəkdə və uzunmüddətli perspektivdə Azərbaycan iqtisadiyyatına daha da təkan verəcəyi gözlənilir.

ÜDM 2021-ci illə müqayisədə 4,6% artaraq 2022-ci ildə 133,8 milyard manata (78,7 milyard ABŞ dolları) çatıb. 2022-ci il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi 52,69 milyard ABŞ dollarına yaxın olmuşdur ki, bunun da ixracı 38,15 milyard ABŞ dolları, idxalı isə 14,54 milyard ABŞ dolları təşkil etmişdir.

2022-ci ilə qəbul edilmiş dövlət büdcəsində neft transferlərinin əvvəlki illə müqayisədə artması milli valyutanın məzənnəsinin dayanıqlığını dəstəkləyəcəkdir. Digər tərəfdən anti-inflyasiya xarakterli pul siyasəti daxili tələbin monetar amillərin tarazlı səviyyədə qorunmasına xidmət edəcəkdir. Müvəqqəti xarici və daxili xərc amillərinin qiymətlərə təsiri neytrallaşdıqca, balanslaşdırıcı rol oynayan amonetar amillərin inflyasiyaya azaldıcı təsirləri güclənəcək.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat müəyyən edilmişdir.

Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən ödənilən sığorta haqqının məbləğinə 2022-ci il yanvarın 1-dək 50% güzəşt tətbiq edilir.

Bu o deməkdir ki, 2022-ci il yanvarın 1-dək qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən 1%, 8,000 manatdan yuxarı olan hissəsindən isə 0.5% miqdarında icbari tibbi sığorta haqqı tutulub.

2022-ci ildən etibarən qeyri-dövlət və qeyri-neft sektoru üzrə işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən 2% miqdarında icbari tibbi sığorta haqqının tutulması müəyyən olunub.

2022-ci ilin avqust ayında "Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycan iqtisadiyyatı üçün reytinqini "Ba1" səviyyəsində təsdiqləyib və proqnozu sabitdən pozitivə dəyişib.

Siyasi və iqtisadi vəziyyətin mövcud təsirlərini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər və bu da dövlət maliyyəsinin pisləşməsinə, maliyyə bazarlarının qeyri-sabitliyinə, kapital bazarlarında qeyri-likvidliyə, inflyasiyanın artmasına və milli valyutanın əsas xarici valyutalara nisbətdə dəyərdən düşməsinə gətirib çıxara bilər.

Mövcud iqtisadi vəziyyətin gələcək təsirlərini və yuxarıda qeyd olunan tədbirləri qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

Gözlənilən kredit zərərlərinin ("GKZ") qiymətləndirilməsi məqsədilə, Qrup makroiqtisadi dəyişənlər üzrə proqnozlar daxil olmaqla, dəstəkləyici gələcək məlumatlardan istifadə edir. Hər bir iqtisadi proqnozda olduğu kimi, onların reallaşması ilə bağlı fərziyyələr və ehtimallar yüksək dərəcəli qeyri-müəyyənliklə əlaqəlidir və buna görə də faktiki nəticələr proqnozlaşdırılan nəticələrdən əhəmiyyətli dərəcədə fərqlənə bilər.

Qrupun rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Qrupun yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür.

## 3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri

### Maliyyə hesabatlarının hazırlanmasının əsası

Bu konsolidasiya edilmiş maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq tarixi dəyər konvensiyasına uyğun olaraq hazırlanmışdır. Bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı tətbiq edilən əsas uçot siyasətləri aşağıda verilmişdir. Bu siyasətlər, əksi göstərilmədiyi təqdirdə, təqdim olunan dövrə ardıcıl olaraq tətbiq edilmişdir.

### Fasiləsizlik prinsipi

Konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Qrup yaxın gələcəkdə ləğv olunacağına, habelə fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının Qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Qrupun aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi fərdi maliyyə hesabatları standartları Rəhbərlik tərəfindən Qrupun davamlılıq prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri nəzərə alınmalı olan müəyyən məsələləri və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Davamlılıq prinsipi təxminlərin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

### Təqdimatın digər meyarları

Qrupun MHBS-yə uyğun konsolidasiya edilmiş maliyyə hesabatları tarixi dəyər konvensiyasına əsasən hazırlanmışdır.

### Konsolidasiya üçün əsaslar

Konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun və onun törəmə müəssisələrinin (Qrup tərəfindən nəzarət edilən müəssisələrin) maliyyə hesabatlarını özündə birləşdirir. Qrupun öz törəmə müəssisəsinin fəaliyyətindən fayda əldə etmək üçün təşkilatın maliyyə və əməliyyat siyasətini idarə etmək səlahiyyətinə malik olması halında ona nəzarət edir.

İl ərzində əldə edilmiş və ya satılmış törəmə müəssisələrin gəlir və xərcləri öz törəmə müəssisəsinin satın alınmanın qüvvəyə mindiyi tarixdən etibarən, törəmə müəssisənin silinməsi tarixinə qədər konsolidasiya edilmiş məcmu gəlir hesabatında müvafiq qaydada tanınır.

Törəmə müəssisələrin məcmu gəlirləri Qrup sahiblərinə və hətta törəmə müəssisəyə nəzarət etməyən mənfi tərəflər üçün saldonun yaranması ilə nəticələnsə belə, nəzarət etməyən tərəflərə aid edilir.

Lazım olduqda törəmə müəssisələrdə tətbiq edilən mühasibat uçotu qaydalarının Qrupun digər üzvləri tərəfindən istifadə olunan mühasibat uçotu qaydalarına uyğunlaşdırılması üçün törəmə müəssisələrin maliyyə hesabatlarına düzəlişlər edilir.

Bütün qrupdaxili əməliyyatlar və qalıqlar konsolidasiya zamanı tam şəkildə ləğv edilir.

## 3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Cari və uzunmüddətli təsnifat

Qrup aktiv və öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatda cari/uzunmüddətli təsnifatına əsasən təqdim edir. Aktiv o zaman cari sayılır:

Ən əhəmiyyətli qiymətləndirmələr əmlak, tikili və avadanlıqların köhnəlmə müddəti, qeyri-maliyyə və maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri, köhnəlmiş ehtiyatlar üçün ehtiyat, vergi və qanuni şərtlər üçün ehtiyat və təxirə salınmış vergitutma ilə əlaqədardır. Faktiki nəticələr bu fərziyyələrdən fərqli ola bilər.

### Mühakimə

Qrupun uçot siyasətini tətbiq edərkən rəhbərlik, MHBS-yə uyğun olaraq əvvəlcədən maliyyə hesabatlarında tanınan məbləğlərə ən əhəmiyyətli təsir göstərən qiymətləndirmələrə əlavə olaraq aşağıdakı mühakimələri etmişdir:

### Fəaliyyətin fasiləsizliyi

Rəhbərlik, Qrupun yaxın gələcəkdə işini davam etdirəcəyini güman edir. Bu qərarı qəbul edərkən rəhbərlik Qrupun cari niyyətlərini və maliyyə vəziyyətini nəzərə aldı. Rəhbərlik, Qrupun baş ofisindən davamlı dəstək almaqla birgə, yaxın gələcəkdə aktivlərin fasiləsiz fəaliyyətinin davam etdirə biləcəyinə inanır. Bu şərtlər Qrupun növbəti on iki ay ərzində davamlı olaraq davam edə biləcəyini göstərir.

Əməliyyatların həcmini və Qrupun debitor borclarını nəzərə alaraq, normal fəaliyyət dövründə aktivlərini reallaşdıra və öhdəliklərini yerinə yetirə biləcəkdir. Bu maliyyə hesabatla, aktivlərin və öhdəliklərin balans dəyərinə düzəlişləri, gəlirlər və xərclər barədə məlumatı və maliyyə vəziyyətinin təsnifatı haqqında hesabatı daxil etmir və belə düzəlişlər əhəmiyyətli ola bilər.

### Əlaqəli tərəflərin əməliyyatlarının ilkin tanınması

Normal iş dövründə Qrup əlaqəli tərəflərlə əməliyyatlar həyata keçirir. 9 saylı MHBS maliyyə alətlərinin ədalətli dəyərlərinə əsasən ilkin tanınmasını tələb edir. Əməliyyatların bazar və ya bazar olmayan faiz dərəcələri ilə qiymətləndirildiyi və bu cür əməliyyatlar üçün aktiv bazar olmadığı müəyyən edilərkən mühakimə tətbiq edilir. Qərar üçün əsas, əlaqəsi olmayan tərəflərlə oxşar əməliyyatlar üçün qiymət və effektiv faiz təhlilləridir.

## 4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

### Əmlak və avadanlıqların faydalı istifadə müddəti

Qrup əmlak və avadanlıqların qalan faydalı istifadə müddətini ən azı hər maliyyə ilinin sonunda qiymətləndirir. Gözləntilər əvvəlki hesablamalardan fərqli olarsa, dəyişikliklər 8 №-li "Mühasibat uçotu siyasəti, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər" adlı MHBS-yə uyğun olaraq mühasibat qiymətləndirməsində dəyişiklik kimi uçota alınır. Bu qiymətləndirmələr əmlak və avadanlıqların balans dəyərinin miqdarına, həmçinin də mənfəət və ya zərər hesablarında tanınan köhnəlməyə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

### İcarəyə götürmə müddətinin müəyyən edilməsi

16 saylı MHBS-nın tətbiqi istifadə hüququ olan aktivlər və icarə öhdəlikləri haqqında mühakimə yürütməyi tələb edir. İcarəyə götürmə müddətini müəyyən edərkən, Qrup uzadılma opsiyalarının həyata keçirilməsinə (və ya ləğv etmə opsiyalarının həyata keçirilməsinə) iqtisadi stimul yaradan bütün faktları və halları nəzərə alır. Müqavilənin icarəyə daxil olub-olmadığını qiymətləndirmək də mülahizə tələb edir. İcarə öhdəliklərini ölçmək üçün istifadə edilən müvafiq diskont dərəcəsini müəyyən etmək üçün təxminlər tələb olunur.

### Əmlak və avadanlıqların dəyərsizləşməsi

Qrup hər hesabat tarixində aktivin dəyərdən düşə biləcəyinə dair hər hansı bir əlamətin olub olmadığını qiymətləndirir. Belə dəyərsizləşmə əlaməti varsa, Qrup aktivin bərpa edilə bilən dəyərini qiymətləndirir. Aktivin bərpa edilə bilən dəyəri, aktivin və ya pul yaradan vahidinin ədalətli dəyərindən satış xərcləri çıxılmaqla olan dəyəri ilə  istifadədəki dəyəri arasında ən yüksəyidir .

Qrupdan əhəmiyyətli dərəcədə müstəqil olmayan pul axını yaratmadığı təqdirdə fərdi aktiv üçün müəyyən edilir. Aktivin balans dəyəri bərpa edilə bilən dəyərindən artıq olduqda, aktiv dəyərsizləşmiş hesab olunur və bərpa edilə bilən dəyərinə yazılır. Əmlak və avadanlıqların dəyərsizləşməsinin müəyyənləşdirilməsi dəyərsizləşmənin səbəbi, vaxtı və miqdarı daxil olan, lakin bununla məhdudlaşmayan qiymətləndirmələrin istifadəsini əhatə edir.

Dəyərsizləşmə, mövcud rəqabət şəraitindəki dəyişikliklər, sənayedəki artım gözləntiləri, kapital dəyərinin artması, gələcəkdə maliyyələşmə mövcudluğunun dəyişməsi, texnoloji köhnəlmə, xidmətin dayandırılması, cari əvəzetmə xərcləri və dəyərsizləşməni göstərən vəziyyətlərdə olan sair dəyişikliklər kimi bir çox amillərə əsaslanır. Pul vəsaitlərini yaradan vahidin bərpa edilə bilən məbləğinin müəyyənləşdirilməsi rəhbərliyin qiymətləndirmələrdən istifadəsini əhatə edir.

İstifadə dəyərini müəyyənləşdirmək üçün istifadə olunan metodlara, Qrupun pul vəsaitlərini yaradan vahidindən gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinin qiymətləndirməsini və həmçinin həmin pul vəsaitlərinin hərəkəti hazırki dəyərini hesablamaq üçün uyğun endirim dərəcəsini seçməsini tələb edən diskont edilmiş pul axını əsaslı metodlar daxildir. Bu qiymətləndirmələr, o cümlədən istifadə olunan metodologiyalar ədalətli dəyərə və nəticədə əmlak və avadanlıqlara olan hər hansı dəyərsizləşmənin miqdarına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. 31 dekabr 2022-ci il tarixində bitən il ərzində Qrup əmlak və avadanıqlar üçün heç bir dəyərsizləşmə üzrə zərər tanımamışdır.

### Ticarət və digər debitor borcların və digər aktivlərin dəyərsizləşməsi

Qrup, gözlənilən kredit zərəri modelini amortizasiya dəyəri ilə ölçülən maliyyə aktivlərinə tətbiq edir. Ticarət və digər debitor borclar üzrə gözlənilən kredit zərərləri üzrə ehtiyatlar ömür boyu gözlənilən kredit zərərləri ilə bərabər məbləğdə qiymətləndirilir.

**4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)**

**Qismən hərəkətsiz və yararsız mal-materiallar üçün ehtiyat**

Qismən hərəkətsiz və yararsız mal-materiallar üçün ehtiyatlar Qrupun mal-materillarının qiymətləndirilməsinə əsasən hesablanır. Mal-materiallar zədələnərsə, yararsız olub xalis satış qiyməti balans qiymətindən aşağı düşərsə, bu halda mal-materialların silgisi vacib olur. Mal-materilların silinməsi, Qrup rəhbərliyi tərəfindən ilin sonuna olan mal-materiallrın yararsız hala düşməsi və faydalılığının qiymətləndirilməsi əsasında baş verir.

**Cari vergilər**

Azərbaycanın vergi sistemi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır və dəyişikliklər tez-tez baş verir. Bundan əlavə, vergi orqanları tərəfindən Qrupun subyektlərinin əməliyyatları və fəaliyyətlərinə tətbiq olunan şərh rəhbərliyin açıqlamaları ilə üst-üstə düşməyə bilər. Nəticədə vergi orqanları əməliyyatlara etiraz edə bilər və Qrupun subyektləri üçün əhəmiyyətli ola biləcək əlavə vergilər, cərimələr və faizlər ilə qiymətləndirilə bilər. Vergi və gömrük orqanları tərəfindən yoxlanış ilindən əvvəlki üç təqvim ili üzrə vergi öhdəlikləri ilə bağlı araşdırmalar aparıla bilər. Müəyyən şərtlərdə təhlil daha uzun müddətləri əhatə edə bilər. 31 dekabr 2022-ci il tarixinə rəhbərlik müvafiq qanunvericiliyin şərhinin məqsədəuyğun olduğunu və Qrupun vergi, valyuta və gömrük mövqelərinin davamlı olacağını düşünür.

**5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi**

Aşağıdakı yenidən işlənmiş standartlar 01 yanvar 2022-ci il tarixindən qüvvəyə minmiş, lakin Qrupa əhəmiyyətli dərəcədə təsir göstərməmişdir:

**MHBS 17 "Sığorta Müqavilələri"**

2017-ci ildə hazırlanmışdır və MHBS 4 "Sığorta müqaviləsi"-ni əvəz etmişdir. Yeni standart sığorta müqaviləsinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması haqqında prinsipləri özündə cəmləşdirir. Qrup verdiyi sığorta müqavilələrinə, o cümlədən təkrarsığorta müqavilələrinə 17 saylı "Sığorta Müqavilələri" adlı MHBS-ni tətbiq etməlidir. 17 saylı MHBS 01 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Həm Müştərilərlə Müqavilələrdən Gəlir 15 saylı MHBS, həm də 9 saylı MHBS Maliyyə Alətləri də tətbiq olunarsa, erkən tətbiqə icazə verilir. Bu standart Qrup üçün tətbiq edilmir.

**8 saylı MUBS-yə dəyişikliklər**

Uçot təxminlərinin müəyyən edilməsi (12 fevral 2021-ci ildə dərc olunub və 01 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). 8 saylı MUBS-yə edilmiş dəyişiklik Müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu izah edir. Mühasibat Uçotu Təxminlərinin Tərifi – 8 saylı MUBS-yə Dəyişikliklər – 2021-ci ilin fevral ayında 8 saylı MUBS-yə düzəlişlər etdi və burada "mühasibat təxminlərinin" tərifini təqdim edir. Düzəlişlər mühasibat uçotu təxminlərindəki dəyişikliklər və uçot siyasətindəki dəyişikliklər və səhvlərin düzəldilməsi arasındakı fərqi aydınlaşdırır. Həmçinin, onlar mühasibat təxminlərini hazırlamaq üçün Müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

## 5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

**16 saylı MUBS, 37 saylı MUBS və 3 saylı MHBS ilə bağlı məhdud məzmunlu dəyişikliklər – "Təyinatlı istifadədən əvvəl əldə edilən gəlirlər", "Yükümlü müqavilələr" – "Müqavilənin icrası ilə bağlı xərclər", "Konseptual Əsaslara İstinad"**

16 saylı MUBS-yə dəyişiklik Müəssisələrə aktivi təyinatı üzrə istifadəyə hazırlayarkən istehsal olunan materialların satışından əldə etdikləri gəlirlərin əsas vəsaitlərin maya dəyərindən çıxılmasını qadağan edir. Belə materialların satışından əldə olunan gəlirlər istehsal xərcləri ilə birlikdə artıq mənfəət və zərərin tərkibində tanınır. Qrup belə materialların maya dəyərini ölçmək üçün 2 saylı MUBS-ni tətbiq edəcəkdir. Sınaqdan keçirilən aktiv təyinatı üzrə istifadəyə hələ hazır olmadığı üçün belə aktivin amortizasiyası maya dəyərinə daxil edilmir.

16 saylı MHBS-yə dəyişiklik aktivin texniki və fiziki göstəricilərini qiymətləndirərkən Qrupun "aktivin düzgün işləməsini sınayacağı" da açıqlayır. Həmin aktivin maliyyə göstəriciləri bu qiymətləndirməyə aid deyil. Beləliklə, aktiv rəhbərliyin nəzərdə tutduğu kimi istismar oluna və rəhbərliyin gözlədiyi əməliyyat effektivliyi səviyyəsinə çatana qədər amortizasiya edilə bilər.

37 saylı MUBS-yə dəyişiklik "müqavilənin icrası xərcləri" anlayışını izah edir. Dəyişiklikdə müqavilənin icrası üçün birbaşa xərclərin həmin müqavilənin icrası üzrə əlavə xərclərdən ibarət olduğu; və müqavilələrin icrası ilə birbaşa əlaqəli olan digər xərclərin bölüşdürülməsi izah edilir. Dəyişiklik, həmçinin yükümlü müqavilə üçün ayrıca ehtiyat yaradılmazdan əvvəl Qrupun müqavilənin icrası üçün ayrılmış aktivlər üzrə deyil, müqaviləni yerinə yetirmək üçün istifadə etdiyi aktivlər üzrə yaranmış dəyərsizləşmə zərərini tanımasını açıqlayır.

3 saylı MHBS Müəssisələrin birləşməsi zamanı aktiv və ya öhdəliyin tərkibini müəyyənləşdirmək məqsədilə "2018-ci il Maliyyə Hesabatları üzrə Konseptual Əsaslara" istinad etmək üçün dəyişdirilmişdir. Bu dəyişiklikdən əvvəl 3 saylı MHBS-də "2001-ci il Maliyyə Hesabatları üzrə Konseptual Əsaslara" istinad edilirdi. Bundan əlavə, 3 saylı MHBS-yə öhdəliklər və şərti öhdəliklər üçün yeni istisna əlavə edilmişdir. Bu istisna bəzi öhdəliklər və şərti öhdəliklər üçün 3 saylı MHBS-ni tətbiq edən Müəssisənin "2018-ci il Maliyyə Hesabatları üzrə Konseptual Əsaslar" əvəzinə 37 saylı MUBS və ya 21 saylı MHBŞK-ya istinad etməsini nəzərdə tutur.

**1 saylı MUBS və MHBS-nin tətbiqi üzrə 2 saylı praktiki tövsiyələrə dəyişikliklər: Uçot siyasəti haqqında açıqlamalar (12 fevral 2021-ci ildə dərc olunub və 01 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir)**

1 saylı MUBS-yə dəyişikliklər Müəssisələrdən mühüm uçot siyasəti deyil, əhəmiyyətli uçot siyasəti məlumatlarının açıqlanmasını tələb edir. Bu dəyişiklik əhəmiyyətli uçot siyasəti məlumatlarını müəyyənləşdirir. Bundan əlavə, dəyişikliyə əsasən uçot siyasəti məlumatlarının əhəmiyyətli olması o zaman gözlənilə bilər ki, belə məlumat olmadıqda maliyyə hesabatlarının istifadəçiləri maliyyə hesabatlarındakı digər əhəmiyyətli məlumatları anlaya bilməsin. Dəyişiklik Qrupun maliyyə hesabatları üçün əhəmiyyətli hesab oluna bilən uçot siyasəti məlumatlarına dair nümunələr təqdim edir.

Bundan başqa, 1 saylı MUBS-yə edilən dəyişikliyə əsasən əhəmiyyətli olmayan uçot siyasəti məlumatlarının açıqlanmasına ehtiyac olmadığı qeyd olunur. Bununla birlikdə, belə məlumatlar açıqlandığı təqdirdə əhəmiyyətli uçot siyasəti məlumatlarının açıqlanmasına mane olmamalıdır. Bu dəyişikliyi dəstəkləmək məqsədilə, uçot siyasətindəki açıqlamalara əhəmiyyətlilik konsepsiyasının tətbiqi ilə bağlı təlimat əlavə etmək üçün MHBS-nin tətbiqi üzrə 2 saylı tövsiyələrə ("Əhəmiyyətliliklə bağlı mühakimələrin yürüdülməsi") dəyişiklik edilmişdir.

## 5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

**2 saylı MUBS-yə dəyişiklik - Vahid əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər (7 may 2021-ci ildə dərc edilib və 01 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir)**

12 saylı MUBS-yə dəyişiklik icarə və istismardan çıxarma öhdəlikləri kimi əməliyyatlar üzrə təxirə salınmış vergilərin uçota alınması qaydasını izah edir. Müəyyən hallarda, Müəssisələr aktiv və ya öhdəliklərin ilk dəfə uçota alınması zamanı təxirə salınmış verginin tanınması öhdəliyindən azad edilir.

Əvvəllər bu istisnanın icarə və istismardan çıxarma öhdəliklərinə şamil edilib-edilməməsi ilə bağlı müəyyən qeyri-müəyyənlik olmuşdur, halbuki hər iki əməliyyat üçün aktiv və öhdəlik tanınır. Bu dəyişikliklər, istisnanın tətbiq edilmədiyini və Müəssisələrin belə əməliyyatlar üzrə təxirə salınmış vergini tanımalı olduğunu aydınlaşdırır. 12 saylı MUBS-yə dəyişikliklər Müəssisələrdən ilkin tanınma zamanı vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlar üzrə təxirə salınmış vergini tanımağı tələb edir.

Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda, yeni standartlar və şərhlərin Qrupun maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## 6. Əmlak və avadanlıqlar

Əmlak və avadanlıqların xalis dəyərinin hərəkəti aşağıdakı kimi olmuşdur

| | **Binalar** | **Torpağ** | **Maşın və avadanlıqlar** | **Nəqliyyat vasitələri** | **Digər əsas vəsaitlər** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **Xalis dəyər** | | | | | | |
| **31 dekabr 2020-ci il tarixinə** | **576,995** | **-** | **103,131** | **450,855** | **102,976** | **1,233,957** |
| Əlavələr | 2,213,354 | - | 21,390 | 258,699 | 28,994 | 2,522,437 |
| Silinmələr | - | - | - | (65,398) | - | (65,398) |
| İl üzrə köhnəlmə | (193,572) | - | (24,146) | (177,388) | (26,394) | (421,500) |
| **31 dekabr 2021-ci il tarixinə** | **2,596,777** | **-** | **100,375** | **466,768** | **105,576** | **3,269,496** |
| Əlavələr | 2,369,131 | 3,836,840 | 250,000 | 173,555 | 97,435 | 6,726,961 |
| Silinmələr | - | - | - | - | - | - |
| İl üzrə köhnəlmə | (352,716) | - | (169,959) | (181,618) | (44,568) | (748,861) |
| **31 dekabr 2022-ci il tarixinə** | **4,613,192** | **3,836,840** | **180,416** | **458,705** | **158,443** | **9,247,596** |

## 7. İnvestisiya mülkiyyəti

İnvestisiya qoyuluşun hərəkəti aşağıdakı kimi olmuşdur

| | 2022-ci il üzrə | 2021-ci il üzrə |
|---|---|---|
| **01 yanvar tarixinə** | **914,955** | **-** |
| İl üzrə investisiya qoyuluşu | - | 914,955 |
| **31 dekabr tarixinə** | **914,955** | **914,955** |

## 8. Pul və pul vəsaitlərinin ekvivalentləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Banklarda olan pul vəsaitləri | 498,867 | 196,876 |
| **Cəmi pul və pul vəsaitlərinin ekvivalentləri** | **498,867** | **196,876** |

## 9. Mal-material ehtiyatları

Mal-material ehtiyatları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Mallar | 12,380,903 | 3,157,419 |
| **Cəmi mal-material ehtiyatları** | **12,380,903** | **3,157,419** |

## 10. Ticarət və digər debitor borcları

Ticarət və digər debitor borcları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Müştərilərdən debitor borcları | 1,716,766 | 7,266,828 |
| **Cəmi ticarət və digər debitor borclar** | **1,716,766** | **7,266,828** |

## 11. Müddətli borc öhdəlikləri

Bank kreditlərinin qalığı aşağıdakı kimi olmuşdur

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Yerli banklardan alınmış kredit vəsaitləri | 2,850,134 | 340,000 |
| **Cəmi müddətli borc öhdəlikləri** | **2,850,134** | **340,000** |

İl üzrə bank kreditlərinin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | 2022-ci il üzrə | 2021-ci il üzrə |
|---|---|---|
| **01 yanvar tarixinə** | **340,000** | **-** |
| İl üzrə cəlb edilmiş kredit | 4,543,200 | 340,000 |
| İl üzrə ödənilmiş kredit | (2,033,066) | - |
| **31 dekabr tarixinə** | **2,850,134** | **340,000** |

## 12. Ticarət və digər kreditor borcları

Ticarət və digər kreditor borcları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Üçüncü tərəfə olan kreditor borcları | 9,397,158 | 5,917,217 |
| Əlaqəli tərəflərə olan kreditor borcları | 1,412,761 | 1,412,761 |
| **Cəmi ticarət və digər kreditor borclar** | **10,809,919** | **7,329,978** |

## 13. Alınmış avanslar

Alınmış avanslar aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Müştərilərdən alınmış avanslar | 6,745,174 | 2,471,807 |
| **Cəmi ticarət və digər kreditor borclar** | **6,745,174** | **2,471,807** |

*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

## 14. Digər öhdəliklər

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Büdcə üzrə öhdəliklər | 12,066 | 16,819 |
| Digər öhdəliklər | 15,008 | 48,772 |
| **Cəmi digər öhdəliklər** | **27,074** | **65,591** |

## 15. Gəlirlər

Satış aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Malların satışı üzrə gəlirlər | 77,474,814 | 68,029,595 |
| İşlərin xidmətlərin göstərilməsindən gəlirlər | 703,942 | 374,940 |
| İcarə üzrə gəlirlər | 83,074 | 12,881 |
| **Cəmi gəlirlər** | **78,261,830** | **68,417,416** |

## 16. Satışların maya dəyəri

Maya dəyərinə 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə 68,712,540 AZN (31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə: 60,151,969 AZN) dəyərində satılmış malların dəyəri daxildir.

## 17. Ümumi və inzibati xərclər

Ümumi və inzibati xərclər aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Əmək haqqı və mükafatlar üzrə xərclər | (2,483,925) | (1,586,106) |
| Köhnəlmə xərcləri | (748,861) | (421,500) |
| Sosial sığorta üzrə xərclər | (452,737) | (275,036) |
| İcarə xərcləri | (434,796) | (1,010,451) |
| Reklam xərcləri | (439,475) | (118,082) |
| Ezamiyyə xərcləri | (254,566) | (366,381) |
| Bank xərcləri | (135,850) | (123,425) |
| Elektrik, su, kanalizasiya və qaz xidmətləri üzrə xərclər | (117,748) | (52,593) |
| Nəqliyyat xərcləri | (112,708) | (13,592) |
| Yanacaq xərcləri | (53,339) | (51,518) |
| Mənfəət vergisindən başqa vergilər üzrə xərclər | (59,207) | (38,220) |
| Rabitə xərcləri | (46,204) | (28,727) |
| Sığorta xərcləri | (45,861) | (27,923) |
| Təmir xərcləri | - | (10,663) |
| Mühafizə xərcləri | (7,856) | (6,602) |
| **Cəmi ümumi və inzibati xərclər** | **(5,393,133)** | **(4,130,819)** |

*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

## 18. Təəhhüdlər və şərti öhdəliklər

### Məhkəmə prosesləri

Adi fəaliyyət gedişində vaxtaşırı olaraq Qrupa qarşı irəli sürülə biləcək iddialarla əlaqədar Qrupun rəhbərliyi öz təxminlərinə, eləcə də daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

### Vergi prosesi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatları və fəaliyyəti ilə bağlı vergi qanunvericiliyinə dair rəhbərliyin mövqeləri müvafiq vergi orqanları tərəfindən mübahisələndirilə bilər.

Azərbaycan Respublikasında cərəyan edən son hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilər.

Bunun nəticəsində, Qrupa qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi yoxlamaları yoxlamanın keçirildiyi il də daxil olmaqla, vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyətini əhatə edə bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

## 19. Əlaqəli tərəflər ilə əməliyyatlar və qalıqlar

Əlaqəli tərəflər 24 saylı "Əlaqəli tərəflərin açıqlamaları" adlı MHBS-də müəyyən edilmişdir. Bir tərəfin digər tərəfə nəzarət etmək qabiliyyətinə malik olduğu, ümumi nəzarət altında olduğu və ya əhəmiyyətli təsir göstərə biləcəyi və ya maliyyə və əməliyyat qərarları qəbul edərkən qarşı tərəfi birlikdə idarə etməsi halında, bir qayda olaraq, tərəflər əlaqəli sayılır. Hər mümkün əlaqəli tərəfi nəzərdən keçirərkən münasibətlərin mahiyyəti nəzərə alınır, nəinki onların hüquqi forması.

Qrup, əlaqəli tərəflərlə aparılan əməliyyatlar və ödənilməmiş qalıqlar, o cümlədən öhdəliklər ilə bağlı 24 saylı MUBS-nin 18-ci bəndində açıqlama tələblərindən aşağıdakı hallarda azad edilmişdir:

- Nəzarəti və ya müştərək nəzarəti və ya hesabatlı bir təşkilat üzərində əhəmiyyətli təsiri olan hökumət; həmçinin
- Eyni hökumətin nəzarəti və ya birgə nəzarəti və ya həm hesabatlı, həm də digər təşkilata əhəmiyyətli təsiri olduğu üçün əlaqəli tərəf olan digər bir təşkilat.

Əlaqəli tərəflərlə əməliyyatlar üzrə cari qalıqlar aşağıda göstərilir:

| | **31 dekabr 2022-ci il** | | **31 dekabr 2021-ci il** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərin qalıqları** | **Cəmi kategoriya üzrə** | **Əlaqəli tərəflərin qalıqları** | **Cəmi kategoriya üzrə** |
| Ticarət və digər kreditor borcları | - | **10,809,919** | | **7,329,978** |
| - Ümumi nəzarət altında olan müəssisələr | 1,412,761 | | 1,412,761 | |

## 20. Maliyyə risklərinin idarə edilməsi

Qrupun fəaliyyəti üçün risklərin idarə olunması Qrup əməliyyatlarının mühüm elementini təşkil edir. Qrupun əməliyyatlarına təsir göstərəcək əsas risklər aşağıdakılardan ibarətdir:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Qrup rəhbərliyi anlayır ki, səmərəli və effektiv risk idarəetmə sisteminə malik olmaq vacib şərtdir. Bu məqsədlə, Qrup rəhbərliyi risklərin idarə siyasəti yaratmışdır. Bu siyasətin əsas məqsədi Qrupu ehtimal edilən risklərə qarşı qorumaq və ona qarşıda qoyulan hədəflərə çatmaq imkanı yaratmaqdır. Risklərin idarə olunması siyasəti vasitəsilə Qrup rəhbərliyi, aşağıdakı risklərin idarə olunmasına nəzarət edir:

### Kredit riski və kredit risklərinin konsentrasiyası

Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Müəssisəyə dəyə biləcək potensial maliyyə zərəridir. Qrupun kredit riskinə məruz qalan maliyyə alətləri ilk növbədə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərindən və ticarət və digər debitor borclarından ibarətdir. Qrup pul vəsaitlərini Azərbaycan Respublikasının və digər ölkələrin tanınmış maliyyə təşkilatlarında saxlayır. Qrup hesablarının olduğu bankların statusuna daim nəzarət edir.

### Kredit riskinin maksimal həddi

Qrupun məruz qaldığı kredit riskinin maksimum dərəcəsi maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyəri üzrə əks etdirilir və aşağıdakı cədvəldə aktivlərin kateqoriyalarına görə təsnifləşdirilir:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 498,867 | 196,876 |
| Ticarət və digər debitor borcları | 1,716,766 | 7,266,828 |
| **Cəmi maksimal kredit riski** | **2,215,633** | **7,463,704** |

### Likvidlik riski

Likvidlik riski maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin ödəniş müddətlərinin uyğun gəlmədiyi risk olaraq müəyyənləşdirilir. Likvidlik riski Qrupun Maliyyə departamenti tərəfindən idarə olunur. Qrupun likvidlik riskinin idarə edilməsi likvid aktivlər üzrə öhdəliklərin ödəmə müddətində yerinə yetirilməsi nəzərə alınmasını, müxtəlif maliyyələşdirmə mənbələrindən istifadənin təmin edilməsini, maliyyələşdirmə ilə bağlı problemlərin yaranacağı təqdirdə normativ tələblərə qarşı maliyyələşdirmə öhdəlik planlarının saxlanması və balansın likvidlik əmsalının monitorinqinin aparılmasını tələb edir. Likvidlik mövqeyinin vaxtaşırı monitorinqi aparılır və hər iki normal və daha sərt bazar şərtlərini əhatə edən müxtəlif senarilər ilə likvidlik boşluğunun müntəzəm sınaqları yerinə yetirilir.

## 20. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Likvidlik riski (davamı)

Aşağıdakı cədvəllər 31 dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixlərinə müqavilədə nəzərədə tutulan ödəniş müddətinə qədər Qrupun maliyyə alətlərinin diskont edilmiş pul vəsaitlərinin hərəkətini əks etdirir:

| | 1 ilə qədər | 1 ildən artıq | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 498,867 | - | 498,867 |
| Ticarət və digər debitor borcları | 1,716,766 | - | 1,716,766 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **2,215,633** | **-** | **2,215,633** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Müddətli borc öhdəlikləri | - | 2,850,134 | 2,850,134 |
| Ticarət və digər kreditor borcları | 10,809,919 | | 10,809,919 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **10,809,919** | **2,850,134** | **13,660,053** |
| **LİKVİDLİK MÖVQEYİ** | **(8,594,286)** | **(2,850,134)** | **(11,444,420)** |
| **YIĞILMIŞ LİKVİDLİK MÖVQEYİ** | **(8,594,286)** | **(11,444,420)** | |

| | 1 ilə qədər | 1 ildən artıq | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 196,876 | - | 196,876 |
| Ticarət və digər debitor borcları | 7,266,828 | - | 7,266,828 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **7,463,704** | **-** | **7,463,704** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Müddətli borc öhdəlikləri | - | 340,000 | 340,000 |
| Ticarət və digər kreditor borcları | 7,329,978 | | 7,329,978 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **7,329,978** | **340,000** | **7,669,978** |
| **LİKVİDLİK MÖVQEYİ** | **133,726** | **(340,000)** | **(206,274)** |
| **YIĞILMIŞ LİKVİDLİK MÖVQEYİ** | **133,726** | **(206,274)** | |

### Bazar riski

Qrup bazar risklərinə məruz qalır. Bazar riskləri ümumi və xüsusi bazar hərəkətlərinin təsirinə məruz qalan (i) xarici valyuta, (ii) faiz hesablanan aktivlər və öhdəliklərin açıq mövqelərindən irəli gəlir. Rəhbərlik qəbul edilə bilən riskin dəyəri üzrə limitlər müəyyən edir və bunların üzərində müntəzəm monitorinq aparır. Bununla bərabər, bu yanaşmadan istifadə daha əhəmiyyətli bazar hərəkətləri olanda bu limitlərdən kənara çıxan zərərlərin qarşısını almır.

*(i) Xarici valyuta riski*

Qrup fəaliyyətin adi gedişində müxtəlif xarici valyuta üzrə məzənnə riskinə məruz qalır. Xarici valyuta üzrə məzənnə riskləri əsasən gələcək kommersiya əməliyyatlarından, aktiv və öhdəliklər funksional valyutadan fərqli valyutada ifadə edildikdə, uçota alınmış aktiv və öhdəliklərdən yaranır.
Rəhbərlik Qrupun xarici valyuta riskini heclәmir.

## 20. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Bazar riski (davamı)

*(ii) Faiz dərəcəsi riski*

Qrup maliyyə öhdəlikləri və aktivləri üzrə faiz dərəcəsi riskinə məruz qalmır.

### Coğrafı risk konsentrasiyası

31 dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixinə Qrupun maliyyə aktivləri və öhdəlikləri bir sıra ölkələrdə yerləşmişdir ki, bu da bir bölgə üzrə əhəmiyyətli diversifikasiyasının göstəricisidir.

### Maliyyə alətlərinin ədalətli dəyəri

Maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri məcburi satış və ya ləğvetmə halları istisna olmaqla maraqlı tərəflər arasında cari əməliyyatda alətin dəyişdirilə biləcəyi məbləğə daxil edilir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri, mövcud bazar məlumatları və müvafiq qiymətləndirmə metodologiyasından istifadə etməklə Qrup tərəfindən müəyyən edilmişdir. Bununla yanaşı, bazar məlumatlarını şərh etmək üçün təxmin edilən ədalətli dəyəri müəyyən etmək üçün mühakimə tələb olunur. Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərini ölçmək üçün mövcud bazar məlumatlarından istifadə edib.

Aşağıda maliyyə hesabatlarında əks olunan Qrupun maliyyə alətlərinin balans dəyəri və ədalətli dəyəri sinifləri ilə müqayisə edilir.

| **31 dekabr 2022-ci il tarixinə** | **Qalıq dəyəri** | **Ədalətli dəyər** |
|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 498,867 | 498,867 |
| Ticarət və digər debitor borcları | 1,716,766 | 1,716,766 |
| Müddətli borc öhdəlikləri | 2,850,134 | 2,850,134 |
| Ticarət və digər kreditor borcları | 10,809,919 | 10,809,919 |

| **31 dekabr 2021-ci il tarixinə** | **Qalıq dəyəri** | **Ədalətli dəyər** |
|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 196,876 | 196,876 |
| Ticarət və digər debitor borcları | 7,266,828 | 7,266,828 |
| Müddətli borc öhdəlikləri | 340,000 | 340,000 |
| Ticarət və digər kreditor borcları | 7,329,978 | 7,329,978 |

## 20. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

Aşağıdakı cədvəldə ədalətli dəyərlə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərləri və ədalətli dəyər iyerarxiyasındakı səviyyələrinə görə təhlil edilir, buna görə hər ədalətli dəyərin ölçülməsi aşağıda təsnif edilir:

| | Ədalətli dəyərin ölçülməsi | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə alətlərinin təsnifatı** | **Qiymət-ləndirmə tarixi** | **Aktiv bazarlarda qeydiyyata alınmış qiymət (Səviyyə 1)** | **Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (Səviyyə 2)** | **Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (Səviyyə 3)** | **Cəmi** |
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | AD | 31 dekabr 2022-ci il | 498,867 | - | - | 498,867 |
| Ticarət və digər debitor borcları | AD | 31 dekabr 2022-ci il | - | - | 1,716,766 | 1,716,766 |
| **Ədalətli dəyəri açıqlanan öhdəliklər** | | | | | | |
| Müddətli borc öhdəlikləri | AD | 31 dekabr 2022-ci il | - | - | 2,850,134 | 2,850,134 |
| Ticarət və digər kreditor borcları | AD | 31 dekabr 2022-ci il | - | - | 10,809,919 | 10,809,919 |

| | Ədalətli dəyərin ölçülməsi | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə alətlərinin təsnifatı** | **Qiymət-ləndirmə tarixi** | **Aktiv bazarlarda qeydiyyata alınmış qiymət (Səviyyə 1)** | **Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (Səviyyə 2)** | **Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (Səviyyə 3)** | **Cəmi** |
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | AD | 31 dekabr 2021-ci il | 196,876 | - | - | 196,876 |
| Ticarət və digər debitor borcları | AD | 31 dekabr 2021-ci il | - | - | 7,266,828 | 7,266,828 |
| **Ədalətli dəyəri açıqlanan öhdəliklər** | | | | | | |
| Müddətli borc öhdəlikləri | AD | 31 dekabr 2021-ci il | - | - | 340,000 | 340,000 |
| Ticarət və digər kreditor borcları | AD | 31 dekabr 2021-ci il | - | - | 7,329,978 | 7,329,978 |

## 21. Hesabat dövründən sonrakı hadisələr

17 mart 2023-cü ildə Qrup və "Xalq Bank" ASC arasında bir il müddətində olmaqla, 4,500,000 Avro məbləğində yeni kredit müqaviləsi imzalanmışdır.